Sən bizimsən, bizimsən, durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!..

# Məmməd Əmin Rəsulzadə ədəbiyyatımızda

Aynurə Əliyeva

II yazı

***28 May. Bu gün tariximizə Respublika günü kimi daxil olmuşdur. Xalqımız hər il bu günü böyük təntənə ilə bayram edir. Çünki həmin gün -1918-ci il mayın 28-də bütün müsəlman Şərqində birinci olaraq bizim vətənimizdə demokratik respublika yaranmış, xalqımız azadlığa çıxmışdır.***

***... 1917-ci ilin fevralında Rusiyada xalq çarı devirdi. Oktyabr ayında isə burada Sovet dövləti adlanan bir dövlət yaradıldı. Bundan bir qədər sonra Zaqfqaziya Sovet Rusiyasından ayrıldı, müstəqil respublika elan edildi. Lakin bu hökumətə daxil olan Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri arasında birlik yox idi. Ona görə də tezliklə dağıldı.***

... Əvvəlcə Azərbaycanın Müvvəqqəti Milli Şurası yaradıldı. Xalqımızın böyük oğlu Məmmədəmin Rəsulzadəonun sədri seçildi. Milli Şura 1918-ci il mayın 28-də axşam saat 8-də on dəqiqə işləmiş Azərbaycanın azadlığa çıxdığını elan etdi. Azərbaycanın istiqlalını, yəni azdlığını bəyan edən bu sənəd tarixdə "İstiqlal bəyannaməsi" adlanır. "İstiqlal bəyannaməsi" ndə Azərbaycan həmin gündən 1918-ci il mayın 28-dən etibarən müstəqil dövlət elan olunurdu. Burada bildirildi ki, müstəqil Azərbaycan dövləti Xalq Cümhuriyyətini Azərbaycan xalqının seçdiyi adamlar idarə ediləcəkdi. Elə buna görə də müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyəti (Azərbaycan Xalq Respublikası) elan edildi. Demokratik bir dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti dünyada Azərbaycan Demokratik Respublikası (ADR) kimi tanındı.

***Bu günü- tariximizə Respublika günü kimi daxil olmuş 28 Mayı oxuculara tanıtmaq məqsədilə görüləcək tədbirlərdən biri də sərgi ətrafında söhbət adlanır. Sərgi hər hansı məktəbdə keçirilə bilər. Sərgidə Həmin dövrləri əks etdirən kitablar, Cümhuriyyətimizlə bağlı əsərlər, Azərbaycanın istiqlalı yolunda mübarizə aparan dahi şəxsiyyət Məmməd Əmin Rəsulzadənin kitablarından və eləcə də onun mübariz həyat yolunu qələmə alan ədib və tarixi şəxsiyyətlərin kitabları yer almaqdadır. Onlar aşağıdakılardır:***

Məmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu", "Azərbaycan cümhurittəti", "Milli birlik" Bunlarla yanaşı Məmməd Əmin Rəsulzadənin "1903-1909-cu illəri əhatə edən çoxcildli kitabı" bu kitablarla yanaşı yqaub Mahmudovun "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" adlı II cildli kitabı, Azər Turanın "Əli bəy Hüseynzadə" adlı kitabı, Alxan Bayramoğlunun "Azərbaycan Demokratik Respublikası Dövründə Ədəbiyyat" adlı kitabı, Nazif Qəhrəmanlının "Nəsib bəy nümunəsi" adlı kitabı və s. sərgidə yer alır. Kitabxanaçı gələn qonaqları kitablarla yaxından tanış etdikdən sonra Azərbaycanın milli istiqlal hərakatının ideoloqu və lideri, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradılması işinə başçılıq etmiş görkəmli içtimai-siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist Məmməd Əmin Rəsulzadənin ömür yolundan, dönməz mübariz hərakatından söhbət açır. O, eyni zamanda bu dahi şəxsiyyəti tarixə şanlı səhifələr yazmaqla bərabər, ədəbiyyatımıza olan töhfələrindən də söhbət açır:

Kitabxanaçı: Əlbəttə ki, Məmməd Əmin Rəsulzadə ədəbiyyətşünas kimi ədəbiyyatımızda da özünəməxsus imzası ilə yaddaşlardadır. Məmməd Əmin Rəsulzadə yaradıcılığa 1903-cü



ildə Tiflisdə çıxan "Şərqi-rus" qəzetində dərc dərc edilmiş dərc edilmiş "öz idarəmizdən. Bakı" adlı kiçik həcmli yazısı ilə başlamışdır. Elə ilk yazısından ana dili probleminə toxunan müəllif sonralar həmişə ədəbiyyatla bağlı olmuş, ədəbiyyata ictimai-siyasi fəaliyyətinin tərkib hissəsi kimi baxmışdır. Məmməd Əmin Rəsulzadə qələmini ədəbi tənqid və ədəbiyyatşünaslığın bir çox janrlarında sınamışdır Əslində onun üçün konkret bir janr mövcud olmamış, hürriyyət və istiqlal ideyasını yaymaq üçün bütün ədəbi vasitələrdən istifadə etmişdir.

Məmməd Əmin Rəsulzadənin şeirlərində olduğu kimi, dram əsərlərində də azadlıq uğrunda mübarizəyə çəlb etmək istədiyi əsas təbəqə binəsiblər, savadsızlar, daha dəqiqi-geniş xalq kütləsi idi. Onun çağırış pafosu əhalinin bu zümrəsi üzərində köklənirdi. Bu da təsadüfi deyildi. Çünki əsil dramaturgiya ilə məşğul olanlar belə bir həqiqəti əsas götürürdülər ki, "ədəbiyyatın bütün forma və janrları birinci növbədə oxumuş, savadlı adamlar üçün yazıldığı halda, səhnə əsərləri hamı üçün yazılır".Yəni oxumağı və yazmağı bacarmayanlar da ona baxıb faydalana bilərlər. XX əsrin əvvəllərində inqilabi situasiyaların burulğan bir dövründə Məmməd Əmin Rəsulzadə də bu həqiqəti dərk etmiş və 1910-cu ilə qədər bir-birinin ardınca hələlik bizə məlum olan "Nagəhani bəla", "Qaranlıqda işıqlar", "Acı bir həyat" kimi bir neçə maraqlı pyes yazmışdır.

***Xalq Cumhiriyyətinin yaradılması vətənimizin şimalında Azərbaycan dövlətçiliyinin bərpası yolunda ən böyük tarixi hadisə idi. Cumhitriyyət dövründə torpaqlarımızın bütövlüyünün qorunması sahəsində böyük işlər görülməsinə baxmayaraq, daxildə bolşevik-daşnak qrupları Xalq Cumhiriyyətinin fəaliyyətinə maneçilik törətməyə çalışırdılar. Xarici hərbi müdaxiləçilərin və daxildə antiazərbaycan siyasəti yeridənlərin birliyi nəticəsində Şərqdə, Türk və İslam dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.***

***Kitabxanaçının dəyərli məlumatlarından sonra tarix müəllimləri Məmməd Əmin Rəsulzadənin həyatı və mübariz yolu haqqında məlumat verirlər:***

Məhəmməd Əmin Rəsulzadə (tam adı: Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə; d. 31 yanvar 1884, Bakı – ö. 6 mart 1955, Ankara) — Azərbaycanlı dövlət və ictimai xadimi, siyasətçi və publisist, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən biri. Azərbaycan tarixinin ən görkəmli və böyük şəxsiyyətlərindən olub, Azərbaycan milli istiqlal hərəkatına başçılıq etmişdir. Onun "Bir kərə yüksələn bayraq, bir daha enməz!" ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarı olmuşdur.

Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Din xadimi olan atası oğlunu məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci "Rus-müsəlman" məktəbinə qoymuş, buranı bitirdikdən sonra M.Ə.Rəsulzadə öz təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirmişdir. Azərbaycan milli istiqlal hərəkatının və təkcə türk ellərində deyil, bütün islam aləmində ilk respublika üsul-idarəsi olan Azərbaycan Demokratik Respublikasının təməl daşını qoyan Məhəmməd Əmin Rəsulzadənin inqilabi fəaliyyətinin ilk illəri də məhz bu dövrə təsadüf edir. 1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman Gənclik Təşkilatı"nı yaratmışdır. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

Babası – Məhəmmədrəsul Rəsulzadə. Üç övladı olub: Ələkbər, Əbdüləziz, Dostuxanım. Məhəmmədrəsulun böyük oğlu Ələkbər Məhəmməd Əmin Rəsulzadənin atasıdır. Digər oğlu Əbdüləzizin üç övladı olub – Məhəmmədəli, Ümbülbanu, Ümgülsüm. Məhəmməd Əmin Rəsulzadə Əbdüləzizin – öz əmisinin böyük qızı-Ümbülbanu ilə evlənib. Ümbülbanu xanımın bacısı isə tanınmış şairə Ümgülsümdür ki, onun da həyat yoldaşı yazıçı Seyid Hüseyn olub. Məhəmmədrəsulun qız övladı olan Dostuxanım isə (M.Ə.Rəsulzadənin bibisi) 1930-cu ildə vəfat edib, onun övladı olmayıb. Məhəmmədrəsulun Novxanıdan başqa, həm də Bakıda-indiki Nizami metrostansiyasının yerində böyük mülkü olub.

Atası -Axund Hacı Molla Ələkbər Rəsulzadə. Novxanı kəndinin çox tanınmış axundu olub. 1926-cı ildə dünyasını dəyişib. Məzarı Novxanı kənd qəbirstanlığındadır. M.Ə.Rəsulzadənin İstanbulda nəşr etdiyi "Yeni Qafqasiya" jurnalının 1927-ci ildəki sayında onun ölümü haqqında məlumat verilib.

Anası-Zal qızı Ziynət rəhmətə gedib. Analığı Maral xanım Məhəmməd Əminə və bacısı Şəhrəbanı xanıma doğma övladları kimi baxıb. Çox alicənab olan Maral xanım 1929-cu ildə Kərbəla ziyarətinə gedib. 1937-ci ildə Qazaxıstana sürgünə göndərilib və orada vəfat edib.

***Bacısı -Şəhrəbanu xanım. M.Ə.Rəsulzadənin yeganə bacısı olub. Təqiblər, sıxıntılar onun həyatına 1934-cü ildə son qoyub. Qızı Kübra xanım M.Ə.Rəsulzadənin oğlu Rəsula nişanlanıb. Sonradan Rəsul güllələndiyindən onlar ailə həyatı qura bilməyib.***

***Həyat yoldaşı-Ümbülbanu Rəsulzadə. M.Ə.Rəsulzadənin həyat yoldaşı olan bu xanım onun əmisi qızı idi. 1888-ci ildə anadan olub. M.Ə.Rəsulzadə onunla 1908-1909-cü illərdə ailə qurub. Ümbülbanu xanım 1920-ci ildən sonra təqiblərlə dolu həyat yaşamasına baxmayaraq M.Ə.Rəsulzadənin fəaliyyətinə haqq qazandırıb, onu müdafiə edib. Oğlu Rəsul güllələndikdən sonra ailəsi ilə birlikdə əvvəl Qazaxıstanın Çolak-Kurqan yaşayış məntəqəsində, sonradan isə Taldı-Kurqanda-sovxozda məskunlaşıblar. Oğlu Rəsulun ölümünü unuda bilməyən Ümbülbanu xanımın ağır sürgün həyatında ürəyi partlayıb, 1939-cu ildə dünyasını dəyişib, elə orada da dəfn edilib.***

*Yazı Ortaq Dəyərlər İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə icra etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi çərçivəsində milli dövlətçilik ideyalarının təbliği" layihəsi əsasında dərc olunur*